Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“07” mart 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 11

**AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ**

**STRATEGİYA VƏ LAYİHƏ İDARƏETMƏSİ DEPARTAMENTİ HAQQINDA**

**Ə S A S N A M Ə**

**BAKI - 2024**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Strategiya və layihə idarəetməsi departamenti (bundan sonra - Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", Azərbaycan Respublikasının Qanunlarını, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, İdarə Heyətinin və daxili komitələrin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə fəaliyyətini əlaqələndirir.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi Mərkəzi Bankda strateji idarəetmə, layihə idarəetməsi və təşkilati proseslərin idarə edilməsi fəaliyyətlərini dəstəkləmək, habelə Mərkəzi Bankın missiyasının effektiv həyata keçirilməsi və institusional inkişaf hədəflərinə nail olunmasına yardım etməkdən ibarətdir.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. Milli strategiya və proqramlar üzrə aidiyyəti tədbirlərin planlaşdırılması və icrası prosesində bankdaxili və dövlət qurumları ilə kommunikasiya, habelə monitorinq və hesabatlığın həyata keçirilməsi;

3.2. Mərkəzi Bankda strateji planlaşdırma prosesinin idarə olunması;

3.3. Mərkəzi Bankda strateji monitorinq və hesabatlığının həyata keçirilməsi;

3.4. layihələrin qəbul edilmiş layihə idarəetmə standartlarına uyğun planlaşdırılması və idarə edilməsi;

3.5. layihələrin icrasının monitorinq və hesabatlığının həyata keçirilməsi;

3.6. təşkilati proseslərin təhlili və optimallaşdırılmasının təşkil edilməsi;

3.7. Departamentin büdcə layihəsinin hazırlanması və icrasının təmin edilməsi;

3.8. Departamentə aidiyyəti üzrə daxil olan müraciətlərə baxılması, məktub və sorğulara cavabların hazırlanması;

3.9. rəhbərliyin tapşırığı ilə Departamentin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı şöbələrdən ibarətdir:

4.1.1. Strateji planlaşdırma şöbəsi;

4.1.2. Layihə idarəetməsi şöbəsi;

4.1.3. Təşkilati proseslərin idarə edilməsi şöbəsi.

4.2. Departamentə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətlərini direktor müavini (olduqda) həyata keçirir, bu şərtlə ki, rəhbərlik tərəfindən direktor vəzifəsinin icrası şöbə rəislərindən birinə və ya digər şəxsə həvalə edilməsin.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən və ya İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin və vəzifədən azad olunurlar.

## 5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

**5.1. Strateji planlaşdırma şöbəsi:**

5.1.1. strateji idarəetmə üzrə metodoloji rəhbərliyi formalaşdırır və yeni çağırışlara uyğunluğunu təmin edir;

5.1.2. milli strategiya və proqramlar üzrə aidiyyəti tədbirlərin planlaşdırılması prosesində bankdaxili və dövlət qurumları ilə kommunikasiya və koordinasiyanı həyata keçirir;

5.1.3. milli strategiya və proqramlar üzrə Mərkəzi Bankın icraçı olduğu tədbirlərin həyata keçirilməsi istiqamətində monitorinq və hesabatlığı təşkil edir;

5.1.4. strategiyanın formalaşdırılması istiqamətində strateji təhlilləri həyata keçirir və strateji məqsədlərin müəyyən edilməsi prosesini idarə edir;

5.1.5. strateji məqsədlər üzrə hədəf göstəricilərin, təşəbbüslərin və fəaliyyətlərin planlaşdırılması, əsas risklərin müəyyən edilməsi, eləcə də strateji təşəbbüslər üzrə təhlillərin aparılması prosesini idarə edir;

5.1.6. strateji təşəbbüslər üzrə Fəaliyyət planlarını hazırlayır, monitorinq və hesabatlığını həyata keçirir;

5.1.7. strategiyanı nəzərdən keçirir və növbəti strateji dövr üçün hazırlıq prosesini idarə edir;

5.1.8. strateji idarəetmə istiqamətində yeniliklərlə bağlı müxtəlif araşdırmalar və təhlillər aparır;

5.1.9. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.2. Layihə idarəetməsi şöbəsi:**

5.2.1. layihələrin idarə edilməsi üzrə metodoloji rəhbərliyi formalaşdırır və yeni çağırışlara uyğunluğunu təmin edir;

5.2.2. layihələrin idarə edilməsi üzrə yeni yanaşmaların, o cümlədən layihələrin idarə edilməsi sisteminin tətbiq edilməsini təşkil edir;

5.2.3. layihələrin planlaşdırılması, idarə edilməsi və koordinasiyasını həyata keçirir;

5.2.4. layihələrin layihə planına uyğun icrasına nəzarəti, monitorinq və hesabatlığını həyata keçirir;

5.2.5. layihələr üzrə dəyişiklik tələbləri, eləcə də risklərin idarə edilməsini həyata keçirir;

5.2.6. layihə komandalarına metodoloji dəstək göstərir və layihə idarəetməsi üzrə təlimlər həyata keçirir;

5.2.7. layihələrin yekunlaşması prosesini idarə edir və layihə yekunlarının rəhbərliyə təqdim edilməsini təmin edir;

5.2.8. strateji təşəbbüslərin icrası üzrə koordinasiya işini və ona nəzarəti həyata keçirir;

5.2.9. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.3. Təşkilati proseslərin idarə edilməsi şöbəsi:**

5.3.1. təşkilati proseslər üzrə metodoloji rəhbərliyi formalaşdırır və yeni çağırışlara uyğunluğunu təmin edir;

5.3.2. təşkilati proseslərin daha effektiv idarə olunması üçün prosesləri təhlil edir və aidiyyəti struktur bölmələrlə optimallaşdırma ehtiyaclarını müəyyən edir;

5.3.3. təşkilati proseslərin daha effektiv idarə edilməsi üzrə təlimlər təşkil edir və blok-sxemlərinin hazırlanmasında metodoloji dəstək göstərir;

5.3.4. təşkilati proseslər üzrə dəyişikliklərin idarə edilməsi prosesini həyata keçirir;

5.3.5. təşkilati proseslərin monitorinqini həyata keçirir və optimallaşdırılması üzrə təklifləri hazırlayır;

5.3.6. təşkilati proseslərin icra vəziyyətinin monitorinq və hesabatlığını həyata keçirir;

5.3.7. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏALAR

6.1. Bu Əsasnamə təsdiq edildiyi gündən qüvvəyə minir.

6.2. Bu Əsasnamə qüvvəyə mindiyi gündən Mərkəzi Bankın İdarə Heyətinin 07 sentyabr 2022-ci il tarixli qərarı (protokol № 38) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mərkəzi Bankının Strateji və layihə idarəetməsi departamenti haqqında Əsasnamə" ləğv edilir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**